**"Azərbaycan Dövlət Neft Akademiyasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2010-cu ilin noyabr ayında ölkəmizin qocaman ali təhsil müəssisələrindən olan Azərbaycan Dövlət Neft Akademiyasının yaradılmasının 90 illiyi tamam olur.

Fəaliyyətə başladığı vaxtdan etibarən ötən müddət ərzində Azərbaycan Dövlət Neft Akademiyası respublikamızda və onun hüdudlarından kənarda neft, qaz və neft-kimya sənayesi üçün yüksək ixtisaslı mühəndis kadrları hazırlayan ali təhsil ocağına və elmi-tədqiqatlar mərkəzinə çevrilmişdir.

Ölkəmizdə neft sənayesi ilə bağlı sahələrin mütəxəssislərlə təminatı istiqamətində xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Neft Akademiyasının 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Neft Akademiyasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 fevral 2010-cu il,***

***№ 754***

---

Azərbaycan Respublikası Prezidentinin Sərəncamının yerinə yetirilməsi ilə əlaqədar

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Dövlət Neft Akademiyasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2010-cu il tarixli 754 N-li Sərəncamının icrası ilə əlaqədar Təhsil Nazirliyinin Tədbirlər planı" təsdiq edilsin.

2. Nazirliyin Aparatının rəhbərinə (İ.Pirməmmədov), Ali və orta ixtisas təhsili (İ.Mustafayev), İqtisadiyyat (Ş.Əliyev), Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş (A.İbrahimov) şöbələrinə tapşırılsın ki, yubileylə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

3. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının***
***təhsil naziri***
***18 mart 2010-cu il,***

***№ 314***